# AZƏRBAYCANDA DİZAYN TƏHSİLİ:

## tarixi inkişaf mərhələləri, mövcud vəziyyət və perspektivlər

*XIX əsrin sonu, XX əsrin əvvəlləri Qərbi Avropa ölkələrində sənayenin intensiv inkişafı eyni zamanda bədii sənayeni də inkişaf etdirirdi ki, bu da sənaye estetikasının, texniki estetikanın, ümumilikdə dizayn yaradıcılığının əsasını qoyaraq, onun inkişafına zəmin yaratdı.*

*Artıq XX əsrin əvvəllərindən etibarən Azərbaycanda sənayenin, ticarətin və s. sahələrin inkişafı, dizayn yaradıcılığının inkişafına da təsir göstərdi. Dizayn yaradıcılığının daha da təkmilləşdirilərək, elmi-maariflənmə və təşkilati formada inkişafı XX əsrin ikinci yarısından vüsət götürməyə başladı.*

Artıq, 1963-65-ci illərdə bədii konstruksiyaetmənin imkanları və aparıcı işçi qüvvələri formalaşmağa başlayaraq, Azərbaycanda sənayenin tələblərinə uyğun olaraq, iqtisadi bölgələrdə bədii-konstruksiyaetmə işi, texniki estetikanın prinsiplərinin təbliği güclənirdi. Dizayn sahəsi üzrə kadrların hazırlığını artırmaq üçün mütəmadi olaraq Xalq Təsərrüfatı Şurası yanında Xüsusi Bədii Konstruksiyaetmə Bürosu (XTBKB) nəzdində texniki təlim məşğələləri aparılırdı.

Azərbaycanda texniki estetikanın inkişafında, 1978-ci ildə əsaslı formada təşkil edilən ÜTEETİ-nun Bakı filialı xüsusi rol oynamışdır.

Azərbaycanda 40 illik tarixi bir dövrü əhatə edən dizayn təhsili, ilk olaraq keçmiş İncəsənət İnstitutunda (indiki Azərbaycan Dövlət Rəssamlıq Akademiyası) təşkil edilmişdir. Artıq müasir dövrdə bu təhsil istiqaməti Respublikanın digər ali məktəblərində - Memarlıq və İnşaat Universitetində, Qərb Universitetində, ixtisaslı mütəxəssis hazırlığı baxımından həyata keçirilir. Bundan başqa, digər ali məktəblərdə də, ixtisasın zərurətinə əsasən ya ayrıca, yaxud da, ixtisasla əlaqəli fənn kimi (İqtisad Universitetində) tədris edilir. Müəllif tərəfindən vaxtilə, 1997-ci ildən keçmiş Azərbaycan Sənaye İnstitutunda, (indiki Sumqayıt Dövlət Universiteti) iqtisadiyyat ixtisasları üzrə qruplarda neçə illər "İqtisadiyyat və dizayn" kursu seçmə fənn kimi tədris edilmişdir.

Qeyd etmək yerinə düşərdi ki, ADRA-sı dizayn təhsilinin həyata keçirilməsində həm staj, həm də birbaşa baza ixtisas təhsilinə malik olan mütəxəssislərin pedaqoji fəaliyyətlərilə əlaqədar respublikada prioritet daşıyır.

Burada, fəaliyyət göstərən Dizayn kafedrasının zəngin elmi-tədris bazası əsasında digər, geyim-moda, sənaye dizaynı, sənaye qrafikası ixtisasları yaradılmış və hazırda ayrıca ixtisas kimi fəaliyyət göstərir.

"Dizayn" kafedrasına rəhbərlik edən, V.S. Muxina adına Sankt-Peterburq Ali Bədii-Sənaye məktəbinin dizayn ixtisası üzrə 1972-ci il məzunu, respublikada dizayn üzrə ilk professor, əməkdar rəssam Arif Ələsgərov və yenə həmin məktəbin dizayn ixtisası üzrə məzunu, Azərbaycan Dizaynerlər İttifaqının sədri Şahin Ələsgərov, əməkdar incəsənət xadimi, professor Arif Əziz və onlarla digər mütəxəssislər tədris işinin öhdəsindən layiqincə gəlirlər.

A.Ələsgərov 1972-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Rəssamlıq məktəbində müəllimlik fəaliyyətindən 5 il sonra, 1977-ci ildə keçmiş İncəsənət İnstitutunun (indiki ADRA) dəvəti ilə orada pedaqoji fəaliyyətə başlayıb. 1998-ci ildən kafedra müdiri, professor vəzifəsinə seçilib və bu günə qədər də həmin təhsil müəssisəsində göstərilən vəzifədə çalışır. O, tədris işinə xüsusi qayğı və peşəkar pedaqoq həssaslığı ilə yanaşır. A.Ələsgərov pedaqoji fəaliyyətlə yanaşı, hələ keçmiş SSRİ-də ittifaq miqyasında səmərələşdirici ixtiralar üçün sifarişlər almışdır və bu sifarişlər əsasında işlədiyi layihələr ittifaq miqyasında bəyənilmiş və müəlliflik şəhadətnamələrinə layiq görülmüşdür. Onun bədii-estetik yaradıcılığı da, dövlət tərəfindən qiymətləndirilərək, 1990-cı ildə "əməkdar rəssam" fəxri adı ilə təltif edilmişdir. Professorun bu gün, bu kafedraya rəhbərlik etməsi heç də təsadüfi olmayıb, uzun illərin zəngin elmi-pedaqoji, praktik təcrübəsinə əsaslanır.

Prof. A.Ələsgərovun tədris işi üçün əhəmiyyətli xidmətlərindən biri də, hazırladığı, "Dizaynda kompozisiya" - Bakı 2003, dərs vəsaitidir. İllüstrativ materiallarla zəngin olan bu vəsait dizayn ixtisası və onun müxtəlif sahələri üzrə geniş informasiya mənbəyi kimi əhəmiyyət kəsb edir. Dizayn ixtisası üzrə ali təhsil müəssisələrində, kompozisiyanın tədrisi üçün nəzərdə tutulmuş vəsaitdən tələbələr, magistrlər və eləcə də, praktik dizaynerlər istifadə edə bilərlər.

Prof. A.Ələsgərovun yetişdirmələri Azərbaycanda formalaşmaqda olan milli dizayn məktəbinin nümayəndələri kimi, bu gün dünyanın müxtəlif ölkələrində peşəkar mütəxəssis səviyyəsində fəaliyyət göstərirlər. Bu mənada Azərbaycanda dizayn məktəbi özünün inkişaf yolundadır.

Şahin Ələsgərov uzun illər dizayn sahəsində praktiki yaradıcılıq fəaliyyəti ilə məşğul olmuş, onlarla səmərələşdirici təkliflərin, ixtiraların müəllifi olmuşdur. O, Rəssamlar İttifaqından nisbətən gənc olan, 1987-ci ildə yaradılmış Azərbaycan Dizaynerlər İttifaqında öz işini bu günün tələbləri və mümkünlüyü səviyyəsində qurur. Təsadüfi deyildir ki, ildən-ilə ittifaqın sıraları həm peşəkar dizaynelərlə, eləcə də elmi-tədqiqat işləri ilə məşğul olan alimlərlə artır, zənginləşir.

Dizayn kafedrasında baş müəllim kimi fəaliyyət göstərən Ş.Ələsgərov, uzun illər qazandığı praktik təcrübəni böyük həvəs və pedaqoji ustalıqla tədrisdə tətbiq edir.

Respublikada digər ali tədris müəssisələrində - Memarlıq və İnşaat Universiteti, Memarlıq fakültəsinin dekanı, memarlıq namizədi, dosent Sabir Orucov, "Dizayn" kafedrasının

müdiri, memarlıq namizədi, dosent Nərgiz Abdullayeva, əməkdar incəsənət xadimi, Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının - Vitse Prezidenti, professor Rəfael Həsənov, memarlıq namizədi, dosent Yeganə Hacıyeva, Qərb Universitetində, Dizayn fakültəsində kafedra müdiri, sənətşünaslıq namizədi, dosent Tamilla Məmmədova, memarlıq namizədi, professor Səyavuş Dadaşov, bu məqalənin müəllifi və b. mütəxəssis hazırlığı işini böyük səy və peşəkarlıqla həyata keçirirlər.

Professor R.Həsənovun yenicə çapdan çıxmış, "Dizayn terminlərinin izahlı lüğəti" - Bakı 2006, kitabının tələbə və müəllimlər, eləcə də elmi-tədqiqatla məşğul olan mütəxəssislər üçün dəyərli vəsait olacağı şübhəsizdir.

Dizayn, bədii-texniki savadı həyata keçirən təhsil sahəsi olmaqla yanaşı, eyni zamanda o çoxsahəli bir elmdir və təsadüfi deyildir ki, artıq respublikada bu sahədə aspiranturada, dissertanturada fəaliyyət göstərən tədqiqatçılar, müstəqil elmi-tədqiqat işləri yazırlar. Əlbəttə, bu sahədə elmi-tədqiqat işləri, dissertasiya səviyyəsində hələ sovet dövründə, əsasən keçmiş ümumi paytaxt Moskvada təşkil edilir, həyata keçirilirdi. Bu gün, artıq müstəqil respublikamızda bu sahədə elmi-yaradıcılıq işlərinin də vüsət alması, namizədlik dissertasiyalarının yazılması təqdirəlayiq bir iş kimi qiymətləndirilə bilər.

Qeyd edək ki, bu sahədə elmi-tədqiqat işləri, AMEA, Memarlıq və İnşaat İnstitutunda uyğun şöbələrdə aparılır. Bu iş prosesinə rəhbərlik edən, İnstitutun Elmi İşlər üzrə direktor müavini, sənətşünaslıq doktoru Ərtəkin Salamzadənin rolunu və ardıcıl elmi fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Alimin yazdığı, "Dizayn tarixi", Bakı - 1995, metodik vəsaiti və onlarla elmi məqaləsi, respublikada bu sahədə elmi-metodik və elmi-yaradıcılıq fəaliyyəti üçün dəyərli mənbə kimi əhəmiyyət kəsb edir. Həmin institutun "Estetika və informasiya mədəniyyəti" şöbəsinin müdiri, fəlsəfə elmləri namizədi Rəna Abdullayevanın elmi-pedaqoji yaradıcılığı da, məhsuldardır. Onun, "Memarlıq, dizayn, incəsənətdə formayaranma və üslubyaranmanın fundamental əsasları", Bakı-Elm-2003, adlı metodik vəsaiti dizaynın müxtəlif sahələri üzrə təhsil alan tələbələr, müəllimlər üçün tədris-metodik informasiya mənbəyi kimi qiymətləndirilə bilər.

Göstərilən işlər respublikamızda mütəxəssis hazırlığı istiqamətində böyük əhəmiyyət kəsb edir. Lakin, bununla belə, Qərb təhsil sisteminə inteqrasiya baxımından bir çox görüləsi, həyata keçiriləsi məsələlər də az deyildir. Ümumiyyətlə, respublikada sənaye istehsalının güclənməsi, istehlak mallarının dünya bazarlarına çıxması, rəqabət, realizə probleminin və digər məsələlərin həlli üçün dizayn ixtisası üzrə kadr potensialı qeyd etmək olar ki, bu gün üçün nisbətən azlıq təşkil edir ki, bu da yuxarıda qeyd etdiyimiz təhsil müəssisələrinin bazasında müəyyən qədər tələbə kontingentinin məhdudluğu ilə bağlıdır və təbii ki, göstərilən fakültələrin də genişləndirilməsin nəzərdə tutulması vacibdir.

Azərbaycanda XX əsrin ikinci yarısından etibarən peşəkar səviyyədə formalaşan və inkişaf edən dizayn yaradıcılıq fəaliyyətinin, müasir dövrdə respublikada yeni iqtisadi şəraitə keçidlə əlaqədar olaraq, onun milli zəmində, Qərb təhsil sisteminə inteqrativ tədrisinin və fəaliyyət sahələrinin inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. [1;322]

Digər məsələ, yerli mütəxəssislərin, xüsusilə dizayn ixtisası üzrə çalışan pedaqoji işçilərin vaxtaşırı dünyanın aparıcı dövlətlərində kurslara cəlb edilməsi çox vacibdir. Əsasən Qərbi Avropa ölkələrində təşəkkül taparaq inkişaf etmiş dizayn yaradıcılığının, həmin ölkələrin bu günkü elmi-pedaqoji və praktik təcrübəsində öyrənilməsi önəmli ola bilər.

Müəllif, vaxtilə respublika səviyyəsində kursların Texniki Estetika İnstitutunun nəzdində yaradılması təklifini irəli sürmüşdür. Lakin, bu məsələ də hələ ki, öz həllini tapmayıb.

Ümumiyyətlə, Avropaya hərtərəfli inteqrasiya, sıx əməkdaşlıq, təcrübə mübadiləsi, respublikada aparılan məqsədyönlü iş kimi xüsusi əhəmiyyət kəsb edir.

Digər sahələrdə olduğu kimi, dizaynın tədrisi işi istiqamətində də, müxtəlif Qərb dövlətlərində, bu sahədə ali tədris müəssisələrində tədris işinin araşdırılması, öyrənilməsi, onlarla elmi-pedaqoji və tədris-istehsalat təcrübə mübadiləsinin aparılması zəruridir.

Bu mənada, İngiltərənin Glasgo Universitetindəki, Britaniyanın Southampton Universitetindəki Dizayn fakültələri, qardaş Türkiyədə, İstambulda Memar Sinan Güzel Sanatlar Universitesi və göstərilən ixtisas üzrə digər Qərb ali məktəbləri ilə əlaqə yaratmaq əhəmiyyətli olar.

Qeyd etmək lazımdır ki, bu sahədə də, həm postsovet məkanında, həm də Avropa ölkələri ilə əməkdaşlıq zəminində elmi, tədris-yaradıcılıq işləri respublikada müəyyən səviyyədə məqalədə göstərilən təhsil müəssisələrinin timsalında təşkil edilir, həyata keçirilir.

Məsələn, bu istiqamətdə aparılan işlərdən biri kimi, Memarlıq və İnşaat Universitetində dizayn fakültəsində, dosent S.Orucovun rəhbərliyi ilə, dizayn ixtisası üzrə tələbələrin postsovet ölkələrində keçirilən müsabiqə-sərgilərdə öncül yerləri tutması və mükafatlandırılması, eləcə də, Dizayn kafedrasının təşəbbüsü ilə 1-ci və 2-ci Respublika konfranslarının keçirilməsi, tədris-yaradıcılıq işinin uğurlu cəhəti kimi qeyd edilə bilər.

Digər maraqlı tədbir, 2005-ci ildə Qərb Universitetində, Londondan gəlmiş Ravensbourn Layihə və Rabitə kollecinin nümayəndəsi, professor Layton Reid ilə Britaniya səfirliyi tərəfindən təşkil edilən məşğələlər və "Musiqi alətləri muzeyinin rekonstruksiyası" adlı müsabiqə olmuşdur. Müxtəlif dizayn firmalarının da iştirak etdikləri bu tədbirdə 1-ci yeri Qərb Universitetinin tələbələri (Pənahova Səmra-III kurs, Cəfərova Leyla-IV kurs) tutmuşlar və diplomlarla təltif edilmişlər. Dizayn sahəsində qazanılan bu mükafatlar tədris müəssisəsinin, ümumilikdə respublikanın, göstərilən sahədə tədris-yaradıcılıq uğurları kimi qiymətləndirilə bilər.

Bu gün respublikada dizayn yaradıcılığı problemlərinə ümumi müstəvidə baxsaq, onda təcrübə mübadiləsinə bir neçə aspektdən yanaşmaq lazım gəldiyini müəyyən etmək olar və bunlar aşağıdakı kimi şərh edilə bilər:

- müəllimlərin kurslara, elmi konfranslara və s. tədbirlərə cəlb edilməsi;

-tələbələrin və magistrlərin, tələbə elmi cəmiyyətinin (TEJ) və ali məktəb rəhbərliyinin xətti ilə, sərgi, müsabiqə, konfrans və s. tədbirlərə jəlb edilməsi;

-müxtəlif müəssisələrdə praktik fəaliyyətlə məşğul olan dizayner-mütəxəssislərin ixtisasartırma kurslarına, sərgi-müsabiqələrə, konfranslara və s. tədbirlərə cəlb olunması. (Çünki hər il yeniləşən texnologiya qarşıya yeni yanaşma, yeni metodların axtarılması tələbini qoyur).

Əlbəttə, bu işlərin mərkəzləşmiş şəkildə dövlətin maliyyə dəstəyi ilə həyata keçirilməsi zəruridir.

Göstərilən təşkilati iş, verdiyimiz sxemdə struktur ardıcıllığı ilə öz əksini tapmışdır.

*İmaş HACIYEV,*
*sənətşünaslıq namizədi, dosent*

ƏDƏBİYYAT:

1. Гаджиев И. Актуальные проблемы технической эстетики-обучение дизайну. "Bilgi" beynəlxalq elmi-nəzəri və metodik jurnal. Bakı 2004. № 1 (17)



# Fransa Respublikasının KİTABXANALARI

Fransa inqilabının aparıcı şüarlarından biri də kitabxana sahəsinə aid idi. Fransada kitabxana işində dərin inqilabi dəyişiklikləri məhz həmin dövr ilə əlaqələndirmək lazımdır. Burjua inqilabının kitabxanalar haqqında əsas üstün prinsipi "oxucuların hüquq bərabərliyi və hamı üçün açıq" formasında səslənirdi.

Burjua inqibalına qədər, digər ölkələrdə olduğu kimi Fransa dövlətində də kitabxanalar cəmiyyətin müəyyən təbəqələrinə xidmət edirdi. Məsələn, 1737-ci ildə Fransa kralları kitabxanaları, ancaq dövlət və elm adamlarına xidmət göstərmək məqsədilə açmışdı. Təsis yığıncağının və Konventin (Məclis) deputatı, Fransa burjua inqilabının mədəniyyət sahəsi üzrə xadimlərindən biri Anri Qrequar (1750-1831) kitabxanaların təyinatının kökündən dəyişdirilməsi ideyasını irəli sürdü. O, əhalini kitab xəzinəsindən maksimum istifadə etməyə çağırır və kitabxanadan oxucuların istifadəsinin məhdudlaşdırılmamasını tövsiyə edirdi. Anri Qrequar kütləvi kitabxanaları "İnsan zəkasının emalatxanası" adlandırmışdı. Ancaq burjua inqilabı onun ideyasını tam həyata keçirə bilmədi. Kitabxanaya gələn yeni oxucular ancaq Konvent üzvləri, alimlər olmalı idi.



Kitabxanaların yenidən təşkilində təsis yığıncağının dekreti mühüm əhəmiyyətə malik olmuşdur. Həmin dekretə görə müsadirə olunmuş kilsə əmlakı, kitablar və əlyazmalar yerli bələdiyyələrə və ya məhkəmə orqanlarına təhvil verilməli idi. Kilsələrdən zorla müsadirə olunan kitab və əlyazmalar milliləşdirilmiş əmlakın bir hissəsi sayılırdı. Dekabrın 15-də imzalanmış təlimatda bələdiyyələrə ədəbiyyatın təhvil verilməsini sürətləndirmək, kitabların saxlandığı otaqlarda şərait yaratmaq və s. məsələlər öz əksini tapmışdı. Nəticədə müxtəlif ədəbiyyat kolleksiyalarından ibarət zəngin kitab fondu yaradıldı ki, həmin fond yeni təşkil olunan kitabxanalar üçün ilkin zəmin oldu. Bu fond 1790-1811-ci ilə qədər fəaliyyət göstərmiş və onun qalıq hissəsi Arsenal kitabxanasına verilmişdir.

1792-ci il martın 30-da xaricə qaçmış kral tərəfdarlarının əmlakının müsadirə edilməsi haqqında Dekret imzalandı. Yenidən dövlətin əlinə zəngin kitab kolleksiyası keçdi. Həmin ədəbiyyatlar "kitab anbarları"na təhvil verilirdi. Ölkədə səkkiz anbar fəaliyyət göstərirdi ki, onların təşkilində bələdiyyə kitabxanaçısı Paskal Ameylonun xidmətləri xüsusilə qeyd edilməlidir. Toplanmış kitabların dəyər-dəyməzə satılmasının qarşısını almaq üçün Konvent 10 oktyabr 1792-ci ildə "Mühacirlərin evlərində olan şəxsi kitabxanaların, rəsm əsərlərinin, elmi vəsaitlərin satılmasının dayandırılması" haqqında Dekret qəbul etdi. 20 kitabxanadan 250 min nüsxə ədəbiyyat götürüldü. Ədəbiyyatın məhv və xarab edilməsinin qarşısını almaq üçün Konvent xüsusi qərar verdi. Əhəmiyyətli cəhət odur ki, Konvent kitabxanalar haqqında 24 qərar və dekret qəbul etmiş və onun 6-sı kitabların mühafizəsinə ünvanlanmışdır. Yakobinlərin diktaturası dövründə kitabxana sərvətlərini, incəsənət əsərlərini məhv edən şəxslər iki il həbs cəzası ilə məhkum olunurdu.

Qanunvericilik yığıncağının (2 yanvar, 1792-ci il) dekretində kitab sərvətinin dəqiq uçotunun aparılması və departamentlər arasında ədalətli bölüşdürülməsi məsələləri də təsbit edilmişdi. Ümumiyyətlə ölkədə 10 milyon müsadirə olunmuş kitab kolleksiyasından Paris departamenti 1800 min nüsxə, qalan 86 departamentin hərəsi 56 min nüsxə kitab almışdır.

1791-ci ildə Xalq Təhsil Komitəsi təsis olundu. Komitənin kitabxana bölməsinə Anri Qrequar təyin edildi. Bölməyə ölkədə fəaliyyət göstərən və təzə açılan kitabxanaların yenidən qurulması, kitab fondlarının kataloqlaşdırılması, cəmiyyətdə kitabxanaların nüfuzunun qaldırılması, oxucu münasibətlərində hüquq bərabərliyinin təminatı və s. məsələlərin həlli həvalə edilmişdi. İnqilab həmçinin Milli Kitabxanaya zərər də vurdu. Məcburi nüsxələrin verilməsi haqqında Qanunun ləğv edilməsi kitabxananı uzun müddət pulsuz ədəbiyyatın alınmasından məhrum etdi. Siyasi xadim, yazıçı və filosof de Kondors Fransada xalq təhsilinin təşkili üçün plan tərtib etdi. Təhsil proqramına müvafiq hər bir orta məktəbdə kitabxana açmaq nəzərdə tutulsa da, 1795-ci il 25 fevral dekretinə görə ancaq mərkəzi məktəblərdə (bir məktəb 300 min əhali üçün) kitabxanaların açılmasına icazə verilirdi.

1791-ci ilin mayında kitabxana fondlarının kataloqlaşdırılması üçün müvafiq təlimatlar hazırlandı. Ancaq Paris şəhərinin üç böyük kitabxana fondu kataloq kartoçkalarında əks olundu. Təlimata görə Paris Şəhər Kitabxana fondlarının toplu kataloqu da tərtib edilməli idi. Ancaq toplu kataloqların tərtibi elmi və nəzəri cəhətdən çətin və ağır proses olduğu üçün həmin iş yarımçıq qaldı.

Fransa inqilabının kitabxanaşünaslıq xadimləri "ilahiyyət" ilə başlanan köhnəlmiş təsnifatda müəyyən dəyişikliklər etmək mülahizəsini irəli sürdü. Köhnəlmiş bölgü prinsipləri əvəzinə kitabxana-biblioqrafiya təsnifatı və elmi bilik sahələri arasında qarşılıqlı əlaqəni təyin etmək, səmərəli sxem əsasında yerləşdirmək fransız nəzəriyyəçilərinin böyük xidmətidir. Həmin dövrdə milli biblioqrafiyanın təşkili məsələsi də öndəmə gətirilmişdir.



***Fransa ərazisi bəşər inkişafının erkən ocaqlarından biridir. Eramızdan əvvəl 1-ci minilliyin axırı üçün Fransa ərazisinin böyük əksəriyyəti kelt tayfaları, iberlər, liqunlar tərəfindən məskunlaşmışdı. Xalqların böyük miqrasiyası zamanı Fransa ərazisini german tayfaları (franklar, burqundlar) tutdular və onlar yerli əhali ilə qaynayıb-qarışdılar. Karolinqlər imperiyasının süqutu nəticəsində Qərbi Frank dövləti yarandı. X əsrdən ölkə Fransa adlanmağa başladı. Fransa Respublikası Qərbi Avropada yerləşir və sahəsi 551 min $km^2$, əhalisi 583 milyon nəfərdir. Rəsmi dövlət dili - fransız dilidir. Dini etiqada görə katoliklər üstünlük təşkil edir. İnzibati ərazi bölgüsü 95 departamentdən ibarətdir. Dövlət başçısı Prezidentdir. Qanunvericilik orqan ikipalatalı parlamentdən ibarətdir (Milli yığıncaq və Senat). XVIII əsr Fransa inqilabı feodalizm üsul-idarəsinə güclü zərbə endirərək tarixin yeni inkişaf mərhələsinə qədəm qoydu.***

### Paris Milli Kitabxanası

1996- cı ildən fəaliyyətə başlayan Fransa Milli Kitabxanasının yeni binası özünün füsunkar gözəlliyi, qədim və müasir memarlıq elementləri ilə hamını heyran edir. Fransua Mitteranın prezidentliyi dövründə tikilən bu binanın memarı Dominik Perro olmuşdur. Dörd qüllə formasında və açıq kitabı xatırladan Milli Kitabxana Austerlis vağzalından bir qədər uzaqda Sena çayının sol sahilində yerləşir. Hündürlüyü 80 metr olan qüllələr 18 mərtəbədən ibarətdir. Mağazalarla və sahəsi 12000 $m^2$ olan bağla əhatə olunmuşdur. 11 mərtəbəni kitab mağazaları (11,5 milyon kitab və 350 000 dövri mətbuat), 7 mərtəbəni isə ofislər tutur. Oxu və elmi- tədqiqat zalları (2046 yerlik) qüllənin birinci mərtəbəsində yerləşdirilmişdir.

Fransada kitabxanaların tarixi 1368- ci ilə təsadüf edir. 1368-ci ildə kral V Çarlz tərəfindən Luvr şəhərində onun şəxsi kitabxanasının əsası qoyulmuşdur. Kitabxananı mühafizə edən Gilles Maletin tərtib etdiyi siyahıya görə fond 17 nüsxə əlyazmadan və 1000-ə yaxın kitablardan ibarət olmuşdur. Həmin dövrdə kitabxana kral sülalələrinin şəxsi kolleksiyası kimi fəaliyyət göstərmişdir. Ancaq XI Luinin hökmranlığı dövründə (1461-1481) həqiqətən Fransa Milli Kitabxanasının yaradılmasının bünövrəsi qoyuldu. Onun fərmanına görə kitabxanada kral sülalələrinin bütün xronologiyasını özündə əks etdirən yazılı mətnlər saxlanmalı idi. Fərmanda həmçinin kitabxana kolleksiyasının gələcək nəsillər üçün qorunub-saxlanması xüsusi qeyd olunmuşdu. Onun oğlu VIII Çarlz İtaliyaya yürüşləri zamanı ələ keçirilmiş qədim əlyazmaları və nadir kitabları da kitabxanaya təhvil verdi.

1537-ci ildə kitabxanada çap nüsxələrinin qeydiyyatının aparılmasına başlandı. 1537-ci il 28 dekabr kral fərmanına görə bütün mətbəələr və kitab satışı ilə məşğul olan tacirlər bir nüsxəni Bloisdəki Milli Kral Kitabxanasına verməli idi.

XVI əsrin ikinci yarısında kitabxana Paris şəhərinə köçürüldü. Dini müharibələr nəticəsində fondun say tərkibinin aşağı düşməsinə baxmayaraq, onilliklər ərzində kitabxana aparıcı mövqedə dayanmışdır. Daxil olan kitabların sayı o qədər artmışdı ki, kitabxanaçılar sorğu zamanı çətinlik çəkməli olurdular. O, dövrdə baş kitabxanaçı vəzifəsini icra edən Nikolas Klement 1670-ci ildə çap olunmuş materialların təsnifat sistemini işlədi və həmin prinsip indiyə qədər öz qüvvəsini saxlamaqdadır. Kitablar 23 kateqoriyaya bölünür. Hər kateqoriyaya əlifba sırası ilə hərfi işarə verilirdi. Birinci dörd kateqoriya dini, iki kateqoriya qanun və hüquqa, on kateqoriya kitabların xronoloji ardıcıllığına, dörd kateqoriya fəlsəfəyə, elmə və incəsənətə, üç kateqoriya isə ədəbiyyata aid kitabların təsnifatını əks etdirirdi. Əlyazmalar isə dil və sahələrə görə təsnifləşdirilirdi.

1719-cu ildə Ebbi Biqnonun baş kitabxanaçı təyin edildiyi tarixi zaman kitabxananın ən parlaq yüksəlişi ilə xarakterizə olunur. O, 1720-ci ildə kitabxanada qəyyumların nəzarətə götürdüyü beş şöbə təşkil etmiş və onlar aşağıdakılardır: 1) Əlyazma; 2) Çap olunmuş kitablar; 3) Lövhə üzərinə həkk olunmuş çap məhsulları; 4) Medallar; 5) Daş üzərində olan yazı nəqqaşı. Biqnon öz sələflərinin işini davam etdirməklə bərabər, kitabxana kolleksiyasını Avropa alimlərinin mühüm əsərlərinin alınması hesabına zənginləşdirməyə çalışırdı. Alimlər, şairlər və kitabxana kolleksiyası ilə maraqlanan hər bir şəxs onun rəhbərliyi dövründə kitabxanaya azad daxil olmaq hüququ qazanmışdı.

Müasir dövrdə Milli Kitabxana həcminə və elmi dəyərlərin zənginliyinə görə nəinki ölkədə və hətta dünyada ən nüfuzlu informasiya ocaqlarından biridir. Fransa Milli Kitabxanasının ümumi fondunda 12 milyondan yuxarı kitab, 500 min adda dövrü mətbuat, 655 min xəritə və planlar, 15 milyon fotoşəkil, 180 min əlyazma, 800 min qədim antik dövrə aid medallar və sikkələr, 2 milyon musiqi nəşrləri, 930 min audiovizual materiallar, 3 milyon səhnə incəsənətinə aid sənədlər toplanmışdır. Kitabxananın fəaliyyəti, strukturu, maliyyə rejimi 22 mart

